**Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş şahmat turniri başa çatmışdır**

Vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş ənənəvi şahmat turniri Azərbaycan Respublikası Vergilər Nazirliyi, Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə keçirilmişdir.

Nazirliyin əksər struktur vahidlərinin əməkdaşlarının iştirak etdikləri yarışlara aprel ayının 14-də start verilmiş, may ayının 5-də isə yekun vurulmuşdur. Olimpiya sistemi üzrə keçirilən turnirdə Vergilər Nazirliyi Aparatının rəhbərinin müavini Əli Həsənov (1-ci yer), Vergi Auditi Departamentinin əməkdaşı Azay Məmmədov (2-ci yer), Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Babək İbrahimov (3-cü yer) qalib gəlmişlər.

Mərasimdə çıxış edən vergilər nazirinin müşaviri Günay Cəfərli demişdir ki, hər il keçirilən və müsbət ənənə halını alan şahmat turniri vergi xidməti əməkdaşlarının ulu öndər Heydər Əliyevin xatirəsinə yüksək ehtiramının təcəssümüdür. Günay Cəfərli qədim tarixə malik, güclü zehni qabiliyyət tələb edən şahmatın respublikamızda populyarlaşmasında ümummilli liderin xidmətlərini xüsusi vurğulayaraq qeyd etmişdir ki, vergi xidməti əməkdaşları bu turnirdə böyük həvəslə iştirak edir və gərgin mübarizə şəraitində öz bacarıqlarını sınayırlar.

Turnirin qalibi Ə.Həsənov ulu öndərin xatirəsinə həsr olunmuş ənənəvi şahmat turnirinin üçüncü dəfə qalibi olması ilə fəxr etdiyini deyərək, belə tədbirlərin şahmatın təbliği baxımından əhəmiyyətli olduğunu qeyd etmişdir. Tədbirin qonağı, beynəlxalq qrossmeyster Rauf Hacılı qalibləri təbrik edərək Vergilər Nazirliyinin bu sahədə təşəbbüskarlığını yüksək qiymətləndirdiyini demişdir. Onun sözlərinə görə, belə tədbirlərin keçirilməsi cəmiyyətdə şahmata marağı daha da gücləndirərək onun kütləviləşməsini təmin edir.

Tədbirin sonunda beynəlxalq qrossmeyster Rauf Hacılı yarış iştirakçıları ilə eynivaxtlı oyun seansı keçirmişdir.

S.MUSTAFAYEV